AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 04.02.2013 |
| Qeydiyyat nömrəsi | 03 |
| Adı | "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları"nın təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 09.02.2013 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201302040003 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 08.02.2013 |

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş " Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"nin 10.4-cü bəndini, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli Konstitusiya Qanununun 20-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 1.5-ci bəndinə əsasən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyası

**QƏRARA ALIR:**

1. "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq və kadrlar şöbəsinə (B.Məmmədov) tapşırılsın ki, qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Dövlət müəssisələrinin fəaliyyətinin əlaqələndirmə şöbəsinə (M.İsmayılov) və Hüquq və kadrlar şöbəsinə (B.Məmmədov) tapşırılsın ki, qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaların müddəalarından irəli gələn məsələlərin həll olunmasını təmin etsinlər.
4. Dövlət müəssisələrinin fəaliyyətinin əlaqələndirmə şöbəsinə (M.İsmayılov) və Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki "Azərpoçt" MMC-yə tapşırılsın ki, sistemin istismarının qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydalara uyğun həyata keçirilməsini təmin etsinlər.
5. Ümumi şöbəyə (İ.Tağıyev) tapşırılsın ki, qərarın Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin şöbələrinə və strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.
6. Qərarın icrasına nəzarət Aparatın rəhbəri V. Zeynalova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Ə.M.Abbasov**

**Kollegiyanın katibi,**
**Ümumi şöbənin müdiri** **İ.Tağıyev**

**Azərbaycan Respublikası**
**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**
**kollegiyasının 2013-cü il 4 fevral tarixli**
**3 nömrəli qərarı ilə təsdiq edilmişdir**

**"Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu**

**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"na uyğun olaraq hazırlanmışdır. Bu Qaydalar Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilən "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin (bundan sonra - PMX AKİS) çıxarışlarının uçotu qaydalarını müəyyən edir.[1]

1.2. PMX AKİS-in çıxarışları istənilən ödəniş vasitələrindən istifadə edilməklə ödəniş aparılarkən sistem tərəfindən avtomatik rejimdə generasiya olunan mədaxil qəbzləridir.

1.3. PMX AKİS-in çıxarışları sistemə qoşulmuş, fiziki və hüquqi şəxslərə ümumi əsaslar üzrə xidmət göstərən müəssisələrə abonent ödənişlərinin, poçt rabitəsi xidmətləri üzrə ödənişlərin və digər ödənişlərin təsdiqidir.

1.4. PMX AKİS-in çıxarışlarının forma və rekvizitləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

1.5. PMX AKİS-in çıxarışlarını onlara oxşar rekvizitlərə malik olan, ciddi hesabat blankları sayılmayan ilkin uçot sənədləri ilə əvəz etməyə yol verilmir.

## 2. Əsas anlayışlar

2.1. **Əməliyyat** - korporativ informasiya sistemləri vasitəsi ilə aparılan əməliyyatlar.

2.2. **Ödəniş vasitəsi** - abonentin apardığı ödəmələr zamanı nağd pul, bank və xəzinə hesabları, ödəniş kartları kimi istifadə edilən ödəniş alətləridir.

2.3. **Abonent** - korporativ müəssisələr üzrə istifadəçisi olduğu xidmətlərə uyğun müəssisələr tərəfindən qeydə alınmış və ona verilmiş abonent hesabına (koduna) malik istifadəçi.

2.4. **Səlahiyyətli orqan (vəzifəli şəxs)** - istismar nəzarətini həyata keçirən, yaxud auditor yoxlanışını aparan, bağlanmış müqavilələrə uyğun olaraq qəbz barədə məlumat əldə etmək hüququna malik səlahiyyətli orqan (vəzifəli şəxs), həmçinin yuxarı instansiyaların araşdırma məqsədilə təşkil

etdiyi komissiyalar.

2.5. **Tranzaksiya nömrəsi** - köçürmənin nömrəsi (yalnız ödəniş kartları vasitəsilə aparılan ödənişlər zamanı).

### 3. PMX AKİS-in çıxarışlarının əsas rekvizitləri

3.1. PMX AKİS-in çıxarışları abonentin hansı ödəniş alətindən istifadə etməsindən asılı olmayaraq eyni formata malikdir və aşağıdakı rekvizitləri özündə əks etdirir:
3.1.1. “Azərpoçt” MMC-nin adı;
3.1.2. “Azərpoçt” MMC-nin VÖEN-i;
3.1.3. Poçt şöbəsinin indeksi;
3.1.4. Mədaxil qəbzinin unikal nömrəsi və tarixi;
3.1.5. Ödəyənin və ya göndərənin tam adı;
3.1.6. Ödəyənin və ya göndərənin VÖEN-i;
3.1.7. Alanın adı;
3.1.8. Alanın VÖEN-i;
3.1.9. Əməliyyatın növü;
3.1.10. Tranzaksiya nömrəsi və ya göndərişin nömrəsi;
3.1.11. Tranzaksiyanın məbləği;
3.1.12. Ödəniş vasitəsi;
3.1.13. Xidmət haqqı məbləği;
3.1.14. Digər məlumatlar (abunəçi kodu, telefon nömrəsi, məktub və bağlamanın çəkisi, teleqramda söz miqdarı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi);
3.1.15. İcraçının soyadı, adı, atasının adı və imzası.

### 4. PMX AKİS-in çıxarışlarının nömrələnməsi

4.1. PMX AKİS-in çıxarışlarının sıra nömrəsi sistem tərəfindən avtomatik rejimdə generasiya olunur.
4.2. PMX AKİS-in çıxarışlarının sıra nömrələrinin sistemdə unikallığı mərkəzləşdirilmiş qaydada təmin olunur.

### 5. PMX AKİS-in çıxarışlarının uçotunun aparılması

5.1. Abonentlərin PMX AKİS vasitəsilə apardığı ödənişlər üzrə çıxarışların uçotu sistemdə avtomatlaşdırılmış qaydada aparılır.
5.2. PMX AKİS-də çıxarışlar haqqında məlumatlar 5 il müddətində elektron imza ilə təmin olunmuş elektron sənəd şəklində saxlanılır.
5.3. PMX AKİS vasitəsilə ödəniş apardıqdan sonra abonent ödənişin təsdiqi kimi çıxarışları dərhal və ya istənilən vaxt əldə edə bilər.
5.4. PMX AKİS-in çıxarışları çap olunaraq abonentə təqdim olunur.
5.5. Abonentin və ya səlahiyyətli orqanın rəsmi müraciəti əsasında aparılan ödəniş əməliyyatını təsdiq edən çıxarış dublikat qeydi edilməklə təkrar çap olunur, abonentə və ya səlahiyyətli orqana təqdim edilir.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 noyabr 2014-cü il tarixli **02** nömrəli Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201411060002, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 17 noyabr 2014-cü il)**
2. 11 iyul 2018-ci il tarixli **002** nömrəli Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201807110002, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 20 iyul 2018-ci il** )

### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 noyabr 2014-cü il tarixli **02** nömrəli Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201411060002, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 17 noyabr 2014-cü il)** ilə “Poçt-maliyyə xidmətləri” Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları”nın 1.1-ci bəndində “**İnformasiya Texnologiyaları**” sözləri “**Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

11 iyul 2018-ci il tarixli **002** nömrəli Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201807110002, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 20 iyul 2018-ci il** ) ilə “Poçt-maliyyə xidmətləri” Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları”nın 1.1-ci bəndində “**Rabitə və Yüksək Texnologiyalar** ” sözlərinin əvvəlinə “**Nəqliyyat**,” sözü əlavə edilmişdir.